# Mahnı müsabiqəsinin qalibi uğurlarını artırmaq əzmindədir

Onun bütün uğurları, amalı da nadir hallarda rast gəlinən adı kimi maraqlıdır. İki sadə, ancaq dilə-dodağa xoş gələn sözdən yaranan ad - Almaxanım.



Almaxanım Əhmədli 2001-ci ildə Bakı şəhərində anadan olub. 2006-cı ildə paytaxtdakı S.C.Pişəvəri adına humanitar fənlər gimnaziyasında oxuyub. Hazırda isə Bakıdakı 259 nömrəli tam orta məktəbdə təhsil alır. Əlaçı şagirddir. Nümunəvi davranışına, ağlına, zəkasına görə məktəbin seçilən şagirdlərindən olan Almaxanım səsinin şirinliyi, özünəməxsus ifa tərzi ilə dinləyiciləri həmişə riqqətə gətirir. O, muğam sənətinin sirlərini tam mənimsəməyə çalışır. Hazırda paytaxtdakı 13 nömrəli musiqi məktəbinin muğam şöbəsinin 4-cü sinfində xanəndə Rafiq Şahbazovdan dərs alır. Təhsillə yanaşı, mədəniyyətə və incəsənətə hər zaman maraq göstərən Almaxanım ziyalı ailəsində, ədəbi-musiqi mühitində böyüdüyünü, uşaqlıqdan bu sənətə vurulduğunu söyləyir. 2014-cü il qeyri-adı istedad sahibi üçün xüsusilə çox uğurlu olub. O, türk xalqları üzrə beynəlxalq musiqi müsabiqəsinin qalibi kimi bürünc medala layiq görülüb və diplomla mükafatlandırılıb. Həmin ilin iyulunda gənc ifaçının muğam, təsnif, xalq və bəstəkar mahnılarından ibarət "Qarabağ" adlı ilk diski işıq üzü görüb. 2015-ci il mahnı müsabiqəsinin qalibi olan gənc istedad deyir ki, pərəstişkarı olduğu korifey sənətkarlar - Arif Babayev, Alim Qasımov, Şövkət Ələkbərova, Rübabə Muradova və Qulu Əsgərovdur. Onların ifaları mənim üçün əsl ustad dərsidir. Onları dinlədikcə görürəm ki, hələ üzərimdə çox çalışmalıyam. Bütün janrlarda oxusam da, ancaq muğam ifaçısı kimi tanınmaq istəyirəm. Planlarım çoxdur, yeni mahnılar hazırlayıram. Bu yaxınlarda "Bu dünyanı sevim, sevməyim" adlı mahnım tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Düşünürəm ki, bu istiqamətdə işlərimi davam etdirməliyəm, ən əsası isə sənətin sirlərinə daha dərindən yiyələnməliyəm. Yaxşı ifaçı olmaq üçün də gərək Azərbaycanın musiqi tarixini mükəmməl biləsən.

Qeyd edək ki, Almaxanım ingilis və ərəb musiqilərini də xoşlayır. Arabir bu dillərdə mahnılar da ifa edir. Tamaşaçı qarşısında növbəti "imtahanlara" səylə, əzmlə hazırlaşan istedadlı qızın uğurları göz önündədir. Xalqın canına, qanına hopan muğam sənətini öz ifaları ilə bir daha sevdirəcəyinə əmindir.